*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 1* *ISSN 2663-4368*
*Səhifə: 247-252* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.1.247*

# Dil və təfəkkürün münasibəti məsələsi

**Aytən Hüseynova**
AMEA Nəsimi adına Dilçilik İnstitutu
E-mail: aytenhuseynova04@gmail.com

**Annotasiya.** Bu məqalədə təfəkkür ilə dil arasındakı münasibət, bu iki kateqoriyanın oxşar və fərqli xüsusiyyətləri müəyyənləşdirilmişdir. Digər tərəfdən təfəkkürün həmişə dillə vəhdət təşkil etməsi, insan düşünərkən öz fikirlərini dil vahidlərinin köməyi ilə ifadə etməsi vurğulanmışdır. Dil təfəkkürün, təfəkkür də dilin qəlibidir, bu, sanki ağ kağızın iki üzünə bənzəyir, bir üzü təfəkkür, o biri üzü isə dildir. Düşüncənin düşüncə ola bilməsi, onun dəyər qazanması üçün mütləq şəkildə gözəl bir dildə ifadə olunması lazımdır. Düşüncələrimizi sözlər, cümlələr, mətnlər şəklində ifadə edərək başqalarına ötürə bilirik. Həmçinin kəlmələrimiz ətraf aləmdəki əşya və hadisələrin dildəki ifadəsidir, insanlar məfhum və anlayışların varlığını yalnız onları adlandırmaqla qavraya bilir. Danışan şəxsin istifadə etdiyi söz və ifadələrin qarşılığı olan anlayış dinləyənin beynində ancaq sözlərin köməyilə anlaşılır. Dilə gətirilməyən bir varlıq haqqında da nəsə söyləmək mümkün deyil. Deməli, təfəkkürün açarı dildir, dilin inkişafı da bilavasitə təfəkkürdən asılıdır. Təfəkkür inkişaf etdikcə yeni anlayışlar və onlara bağlı olaraq yeni sözlər yaranır, nəticədə dil zənginləşir. Dil və təfəkkür arasındakı bu qarşılıqlı təsir insanın fikir və hisslərini daha yaxşı ifadə etməsinə zəmin yaradır.
Dildə buraxılan nöqsanlar düşüncənin də dolaşıq olmasından xəbər verir. Sadə bir məsələ haqqında dolaşıq şəkildə izah vermək – fikir dolaşıqlığı (bu xüsusilə müəllimlərə aiddir), söz və ifadələrin öz semantikasına uyğun olmayaraq işlədilməsi, əlaqəsizlik, cümlələrin düzgün qurulmaması, söz yığını və s. də təfəkkürün nöqsanlı olmasından xəbər verir.
**Açar sözlər:** dil və təfəkkür, dilin spesifik xüsusiyyətləri, dilçilik tarixi, məntiqi təfəkkür, kommunikasiya vasitəsi

**Məqalə tarixçəsi:** göndərilib – 09.02.2024; qəbul edilib – 26.02.2024

# The issue of relationship between language and thinking

**Ayten Huseynova**
Institute of Linguistics named after Nasimi of ANAS
E-mail: aytenhuseynova04@gmail.com

**Abstract.** In this article, relationship between language and thinking, as well as the similarities and differences between them are defined. Moreover the unity of intellection and language, also the expression of the thoughts by means of language units while one’s thinking were noted. Language is the mould for thinking and vice versa like two pages of one sheet of white paper – one side is language while the other one is thinking. In order thought gains the value and becomes thought, it needs to be expressed appropriately in a language. We can pass our thoughts to others by forming them in words, sentences, texts. Also, our words are expression of environment, things and events in language, people can understand them only by naming them. The words and expressions are

understood by the listener by means of key words for that notion in the listener's brain. It's impossible to say anything about something that is not expressed by the language. Therefore, the key to the intellection is language and the development of language depends on intellection. The more intellection develops, the more new notions appear, consequently new words are created thus enlarging the vocabulary. This interrelation between language and intellection creates futile environment for people's better expression of their thoughts and feelings.
The mistakes in language indicates the tangle thinking. Jumble explanation of a simple issue that is tangle thinking (especially teachers), use of words and word combinations in wrong semantics, incorrect sentence structures, etc. show that the intellection is defected.
**Keywords:** language and intellection, specific features of language, history of linguistics, logical thinking, means of communication

**Article history:** received – 09.02.2024; accepted − 26.02.2024

## Giriş / *Introduction*

Dil və təfəkkür məsələsinin mahiyyətini dərindən dərk etmək üçün bu iki məfhumun – həm dilin, həm də təfəkkürün mahiyyətini bilmək zəruridir. Hər şeydən əvvəl onu qeyd etmək lazımdır ki, indiyəqədərki dilçilik ədəbiyyatlarında dil və təfəkkür məsələsinə bu və ya digər şəkildə toxunulmuşdur [1, 3, 5, 6, 8, 9]. Lakin hər iki anlayışın oxşar və fərqli cəhətlərinin aşkara çıxarılması, həmçinin onların analitik müqayisəsinin aparılması da əsas məsələlərdən biri hesab edilir.

Məlumdur ki, xarici aləmin dərk edilməsində təfəkkürün mühüm rolu vardır. Məhz təfəkkür vasitəsilə ətraf aləmdəki cisim və hadisələr arasında mövcud olan elə əlaqələr açılır ki, bunu başqa psixi proseslərin, məsələn, duyğu və qavrayışların köməyi ilə aydınlaşdırmaq mümkün deyil. Nəzərə alsaq ki, kainat bizim şüurumuzdan, həmçinin hiss və duyğularımızdan asılı olmayaraq mövcuddur, o zaman bu hökmün qətiliyini isbat etməyə ehtiyac qalmaz. Görkəmli alman alimi V.fon Humboltun da yazdığı kimi, *"Heç bir təfəkkür, hətta ən safı belə bizim hissiyyatımızın ümumi qəbul edilmiş formalarından fərqli təzahür edə bilməz. Biz onu yalnız həmin formalarda alıb qəlibləşdirə bilərik"* [3, s.68].

## Əsas hissə / *Main Part*

Dil fikir və hissləri ifadə edir, insan dilin köməyi ilə düşünür, ünsiyyət qurur. Hər bir nitq sözün əsl mənasında fikirlə mübarizədir, bu mübarizədə qüvvələr gah tən gəlir, gah da gücsüzdür. V.fon Humboldt dilin aşağıdakı üç vəzifəsini qeyd edir:

*"Dil öz hərəkət intensivliyinə uyğun üç məqsədi izləyir:*

*1. O, anlama prosesində vasitədir, ona görə də dəqiqlik və aydınlıq tələb edir;*

*2. O, hissiyyatı ifadə edir, hissiyyat doğurur, ona görə də güc, aydınlıq və çeviklik tələb edir;*

*3. O, ötürdüyü fikir vasitəsilə yeni fikir və fikir ardıcıllığı oyadır; ona görə də sözlərdə öz damğasını qoyan fikrin hərəkətdə olmasını tələb edir* [5, s.32].

İnsan da maddi varlıqları özünün əməli fəaliyyəti dövründə dərk etməyə başlayır. İnikas nəzəriyyəsində də dünyanın dərk olunması prosesi şərh olunarkən göstərilir ki, insan məntiqi kateqoriyaların köməyi ilə fikirləşir və beləliklə də dünyanı dərk edir. Fikrimizi sadə bir nümunə ilə izah edək. Məlum məsələdir ki, göyə atılan daş, yaxud hər hansı əşya mütləq şəkildə qayıdıb yerə düşəcək. Bu məlum həqiqətin səbəbi yerin cazibə qanunudur. İ.Nyutona qədər bütün insanlar bu hadisəni görmüş və qavramışdılar, lakin səbəbinin nə olduğunu müəyyənləşdirə bilməmişdilər. İ.Nyuton isə bu mühüm məsələni dərindən dərk etmiş və ümumdünya cazibə qanunu kimi mühüm bir qanunu kəşf etmişdir. Bu isə ən yüksək idrak prosesi olan təfək-

kür vasitəsilə mümkün olmuşdur. Deməli, təfəkkürün köməyi ilə ətraf aləmdəki cisim və hadisələrin qavranılması mümkündür. Ona görə də təfəkkürə belə bir tərif verilir: Təfəkkür cisim və hadisələr arasındakı qanunauyğun əlaqə və münasibətlərin ümumiləşmiş və vasitəli inikasından ibarət olan mürəkkəb idrak prosesidir.

*"Təfəkkür vasitəsilə insanlar əşya və hadisələri təhlil edir, fikirləşir, onların növlərini bir-birindən fərqləndirə bilirlər. Başqa sözlə, insanın idrak fəaliyyəti obyektiv varlığın dərk olunmasına yönəldilmişdir ki, bu da ancaq dil formalarında meydana çıxır.*

*İnsan öz əmək fəaliyyətində əşya və hadisələrin əməli vəzifəsini – onun insanlar üçün nə dərəcədə yararlı olub-olmamasını öyrənir və bir-birinə məlumat verirlər ki, bu da ancaq dilin köməyi ilə mümkün olur. Deməli, insan təfəkkürü dil materialı olmadan mövcud ola bilməz. Nitq təfəkkürün fəaliyyət nəticələrini, insanın idrak fəaliyyətinin müvəffəqiyyətlərini özündə cəmləşdirən fikir formasıdır. Deməli, nitq (həm də dil – A.H.) təfəkkürün maddi cildi, fikrin varlıq formasıdır"* [9, s.13].

Beləliklə, beyin fəaliyyəti olan təfəkkürün ifadə aləti dildir. Dil ən vacib kommunikasiya və ümumiləşdirmə vasitəsidir. Bu, duyğudan anlayışa və məntiqi təfəkkürə keçməyə imkan verir. Bir sözlə, dil və təfəkkür arasında möhkəm əlaqə və dialektik vəhdət mövcuddur, bunların bir-birindən təcrid olunmuş şəkildə mövcudluğunun mümkünsüzlüyünü N.Cəfərov özünəməxsus şəkildə izah etmişdir: *"Dilsiz təfəkkürün mövcud olması barədəki düşüncələr, nəticə etibarilə, təfəkkürsüz dil barədə absurd təsəvvür üzərində də baş sındırmağa gətirib çıxara bilər ki, hər ikisi olduqca cəfəng "metafora"dan başqa bir şey deyil. Və dahi Füzuli "edəsən tutiyə təlim ədayi kəlimat, nitq insan olur (yəni insan kimi danışır), amma özü insan olmaz" deyəndə, heç şübhəsiz, təfəkkürsüz dildən (nitqdən) yox, mexaniki təqliddən bəhs edirdi.*

*Əslində, dillə təfəkkürün əlaqəsi barədə danışarkən həmin "əlaqə" sözü o mənada işlədilir ki, burada nə dilsiz təfəkkürdən, nə də təfəkkürsüz dildən söhbət gedə bilər, yəni hər iki mövzu tamamilə istisna olunur"* [3, s.68].

Dil və təfəkkürün qarşılıqlı əlaqəsindən bəhs edən V.fon Humboldt yazır ki, *"dil fikrə yoldaşlıq etməlidir. Fikir dildən geri qalmayaraq onun bir elementindən digərini izləməli və dildə onu əlaqələndirən hər şey üçün işarə tapmalıdır. Əks halda, əgər dil ona yoldaşlıq etmək əvəzinə, fikri tərk edirsə, onlar arasında çatlar baş verir"* [5, s.68].

Dilçilik tarixində dil və təfəkkür problemi ilə ən çox maraqlanan dilçilərdən biri də Noam Xomski olmuşdur. O, "Dil və təfəkkür" adlı məşhur kitabında dil və təfəkkürün qarşılıqlı əlaqəsinə toxunmuş və dilin anadangəlmə olması ideyasını irəli sürmüşdür [8]. Tədqiqatında N.Xomski belə bir fikir irəli sürür ki, *"dil təlimi, ənənəvi olaraq güman edildiyi kimi, insanın mental proseslərinin tədqiqi üçün nəzərəçarpan müsbət perspektivlər aça bilər. Dildən istifadənin yaradıcı aspekti, faktlara diqqət yetirməkdə və qayğı ilə tədqiq edilərkən, davranış və ya biliyin göstəriciləri kimi hal-hazırda istifadə olunan vərdiş və ümumiləşdirmə anlayışlarının kifayət qədər qeyri-adekvat olduğunu göstərir. Linqvistik strukturun abstraktlığı bu nəticəni gücləndirir və belə bir fikri daha da qabardır ki, həm dərketmədə və həm də öyrənmədə təfəkkür biliyin mənimsənilməsinin mahiyyətinin müəyyənləşdirilməsində fəal rol oynayır"* [8, s.142-143].

Ümumiyyətlə, təfəkkür həmişə dillə vəhdət təşkil edir: insan düşünərkən öz fikirlərini dil vahidlərinin köməyi ilə ifadə edir. Təfəkkür dil materiallarının əsasında maddiləşir. Dil bilavasitə fikrin gerçəkliyidir. Bəzən adama elə gəlir ki, öz-özünə fikirləşərkən nitqdən istifadə etmir. Nə qədər ki, ucadan danışmır, yaxud başqasına bir söz demir, deməli, dil materialından istifadə etmir. Ancaq bu fikir tamamilə yanlışdır. Belə düşünən adamlar nitqi ancaq səsli nitq, danışıq nitqi kimi başa düşürlər. Halbuki insanın ancaq özü üçün olan daxili nitqi də mövcuddur. Daxili nitq zamanı insan ancaq öz-özünə fikirləşir və bu zaman da sözlərdən istifadə edir. Hətta yaşlı insanlar, yaxud körpə uşaqlar öz-özlərinə fikirləşdikləri zaman da xarici nitqdən istifadə edirlər, sanki kiminləsə danışırlar.

Bəs dillə təfəkkürün vəhdəti nədən ibarətdir? Bu suala aşağıdakı cavabları vermək olar:

1. Dil və təfəkkürün vəhdəti ondan ibarətdir ki, dil təfəkkürsüz, təfəkkür də dilsiz mövcud ola bilməz;

2. Həm dil, həm də təfəkkür ictimai hadisədir;

3. Dil və təfəkkür birlikdə təşəkkül tapmışdır;

4. Bu iki kateqoriyanın hər biri digərinin varlığı üçün zəruridir;

5. Fikrin ifadəsi üçün dil və təfəkkürün qarşılıqlı fəaliyyəti vacibdir. Bunlardan biri olmasa, digəri də yaranmaz;

6. Təfəkkürün inkişaf etməsində dilin xüsusi rolu vardır;

7. Təfəkkürün inkişaf tarixi nitqin yaranma tarixi qədər qədimdir. İlk dövrlərdə bəsit olan təfəkkür uzun illərin nəticəsində insanın elmi təfəkkürü səviyyəsinə qalxa bilmişdir.

Dil və təfəkkürün bu münasibət və əlaqəsini eyniyyət kimi də zənn etmək olmaz. Çünki bunlar arasında eyniyyət deyil, möhkəm əlaqə vardır ki, bu da hər iki kateqoriya arasında vəhdət təşkil edir. *"Təfəkkür–dil əlaqəsinə gəldikdə demək lazımdır ki, nə qədər sıx əlaqə və münasibətdə olsalar da, bunlar mahiyyətcə iki müxtəlif fenomendir və hər birinin özünəxas məzmunu, forması, strukturu, ünsürləri və funksiyası vardır. Burada dil işarəsinin əsas funksiyası ondan ibarətdir ki, onlar insana xas olan inikas və fikri fəaliyyət sayəsində ümumiləşdirmə və konkretləşdirmə, mücərrədləşdirmə işində mühüm rol oynayır. Dil işarəsinin əsas funksiyası dərketmə funksiyasıdır. Bu mənada dil işarəsi bütün digər semiotik sistemlərdən fərqlənir"* [1, s.58-59]

Ümumiyyətlə, dil və təfəkkürün oxşar cəhətləri ilə yanaşı, fərqli xüsusiyyətlərinin də mövcud olduğunu demək olar. Bu fərqləri belə ümumiləşdirmək olar:

1. Dil üçün spesifik xüsusiyyət onun ən mühüm kommunikasiya vasitəsi olmasıdır. Təfəkkürün səciyyəvi cəhəti isə varlığın ümumiləşmiş şəkildə əks olunmasının yüksək forması olmasıdır;

2. Dil və təfəkkürün fərqlərindən biri də odur ki, bəzən eyni fikir dildə bir neçə formada ifadə edilə bilir. Məsələn, dil insanlar arasında mühüm ünsiyyət vasitəsidir; dilin başlıca funksiyası onun ünsiyyətə xidmət etməsidir; dil insanlar arasında əlaqə yaratmağa xidmət edir; dil cəmiyyətdə əsas ünsiyyət vasitəsidir; insanlar arasında ünsiyyət yaratmaq dilin əsas funksiyasıdır və s.;

3. Dil sözlərdən və cümlələrdən, təfəkkür isə anlayış və mühakimələrdən ibarətdir. Buna görə də dil və təfəkkürün spesifik cəhətləri sözlə anlayışın, cümlə ilə mühakimənin münasibətində də aydın şəkildə özünü göstərir.

**4.** Dil milli xarakter daşıyır, təfəkkür isə ümumbəşəri səciyyəyə malikdir.

### Nəticə / *Conclusion*

Demək olar ki, dil və təfəkkür arasındakı münasibət məsələsi qədim dövrlərdən günümüzə qədər müxtəlif elmlərin mübahisə mövzusu olmuşdur. Bu mövzuda yazılmış əsərlərin xülasəsinə diqqət etsək, irəli sürülmüş bütün müddəalarda bəzən dil və təfəkkürün vəhdətdə götürülməsinin, bəzən də bunların ayrı-ayrı kateqoriyalar olaraq öyrənildiyinin şahidi olmaq mümkündür. Lakin aparılan bütün tədqiqatlar onu deməyə əsas verir ki, düşüncə dillə bağlıdır, dil olmadan düşüncəni də qavramaq mümkünsüzdür. Daha konkret desək, dil olmazsa, düşüncə də olmaz şəklində ifadə etmək olar.

Bir xalqın elminin, mədəniyyətinin inkişafı üçün ilk öncə dilinin inkişaf etməsi lazımdır. "Dil isə ağlın aynasıdır" demiş dahilərimiz.

Təfəkkür dil olmadan da mövcuddur. Aristotel "dil düşüncənin libasıdır" deyərkən vurğulamaq istədiyi bu idi ki, insanlar fikirlərini daha dolğun və təmiz bir şəkildə dilin vasitəsilə bir-birilərinə ötürürlər. Dil düşüncənin ifadə formasıdır.

Dildə buraxılan nöqsanlar düşüncənin də dolaşıq olmasından xəbər verir. Sadə bir məsələ haqqında dolaşıq şəkildə izah vermək – fikir dolaşıqlığı (bu xüsusilə müəllimlərə aiddir), söz və ifadələrin öz semantikasına uyğun olmayaraq işlədilməsi, əlaqəsizlik, cümlələrin düzgün qurulmaması, söz yığını və s. də təfəkkürün nöqsanlı olmasından xəbər verir. *"Firidun bəy Köçərli nitqin aydınlığını təfəkkürün düzgün işləməsi, fikrin düzgünlüyü ilə əlaqələndirir: "Bizim yəqinimizdir ki, dili dolaşıq şəxsin fikri də dolaşıqdır. Doğru və salamat fikirli adamların kəlamı həmişə aydın, açıq və düzgün olur", – deyirdi"* [22].

Azərbaycan dilinin özünəməxsus sabit qrammatik quruluşu, zəngin söz və ifadə ehtiyatı elmi, bədii, siyasi, fəlsəfi və publisistik təfəkkürün gözəl nümunələrini yaratmağa imkan verir.

**Ədəbiyyat / *References***


1. Adilov, M., Verdiyeva, Z., Ağayeva, F. Dilçilik problemləri. Bakı: Elm, – 2019. – 402 s.
2. Boduen de Kurtene, İ.A. Ümumi dilçilik üzrə əsərləri. Bakı: Prestige çap evi, – 2014. – 336 s.
3. Cəfərov, N. Ümumi dilçilik. Bakı: Təhsil, –2023. – 213 s.
4. Ferdinand, de Sössür. Ümumi dilçilik kursu. Bakı: BDU nəşriyyatı, –2003. – 407 s.
5. Humboldt, V.fon. Dillərin milli xarakteri haqqında. Bakı: Prestij çap evi, – 2014. –137 s.
6. Hüseynli, H. Z. Təfəkkürün anlayış-kateqorial aparatı: qnoseoloji və metodoloji təhlil. Bakı: Diplomatiya nəşriyyatı, – 2003. – 489 s.
7. Hüseynli, H. Z. Ümumelmi anlayışlar: məntiqi-qnoseoloji təhlil. – Bakı: Diplomatiya nəşriyyatı, – 1998. – 204 s.
8. Xomski, N. “Dil və təfəkkür”. Bakı: Kitab aləmi, – 2006. – 152 s.
9. Məmmədov, N., Axundov, A. Dilçiliyə giriş. Bakı: Maarif, –1980. – 315 s.
10. Veysəlli, F. Dil. Bakı: Təhsil, – 2007. – 522 s.
11. Veysəlli, F. Struktur dilçiliyin əsasları. Studia Philologica. I c. Bakı: Mütərcim, – 2008. – 342 s.
12. Veysəlli, F. German dilçiliyinə giriş. Bakı: Mütərcim, – 2011. – 405 s.
13. Veysəlli, F. Dilçiliyin əsasları. Studia Philologica. VI. Bakı: Mürtəcim, – 2013. – 417 s.
14. Veysəlli, F. Y. Koqnitiv dilçilik: əsas anlayışları və perspektivləri / F.Veysəlli. – Bakı: Mütərcim, – 2015. – 120 s.
15. Бодуен де Куртенэ И.А. Избранные труды по общему языкознанию. Москва: Изд-во Юрайт, – 2017. – 343 с.
16. Выготский, Л. С. Мышление и речь // Сборник сочинений. В 8-томах - т. 2. Проблемы общей психологии. – М.: –1999. – 361 с.
17. Сепир Э. Избранные труды по языкознанию и культурологии. Москва, –1993. – 317 с.
18. Хомский Н. Синтаксические структуры. «Новое в лингвистике», вып. 4, Москва, – 1962. – 412-527 с.
19. http://www.anl.az/down/meqale/bdu_dil_edebiyyat/2019/03/20(meqale).pdf
20. http://dspace.khazar.org/bitstream/20.500.12323/3856/1/N.Xomski%3BDil%20v%C9%99%20t%C9%99f%C9%99kk%C3%BCr.pdf
21. https://azkurs.org/1-dil-nitq-ve-tefekkur-nitq-inkisaf-anlays.html
22. http://anl.az/el/Kitab/2014/Azf-277620.pdf


## Вопрос о взаимосвязи языка и мышления

**Айтен Гусейнова**
Институт языкознания имени Насими НАНА
E-mail: aytenhuseynova04@gmail.com

**Резюме.** В данной статье определяются взаимосвязь мышления и языка, сходные и различные черты этих двух категорий. С другой стороны, подчеркивается, что мышление с языком всегда составляло единство, когда человек думает, он выражает свои мысли с помощью языковых единиц. Язык – это форма мысли, а мысль – это форма языка, это как две стороны белой бумаги: одна сторона – мысль, а другая – язык. Чтобы мысль была мыслью,

чтобы она приобрела ценность, ее необходимо выразить красивым языком. Мы можем передавать свои мысли другим, выражая их в форме слов, предложений, текстов. Также наши слова являются языковым выражением предметов и событий окружающего мира, осознать существование понятий и представлений человек может только называя их. Понимание, являющееся аналогом слов и выражений, используемых говорящим, постигается в сознании слушателя только с помощью слов. О невысказанном существующем понятии также невозможно что-либо сказать. Таким образом, ключом к мышлению является язык, а развитие языка напрямую зависит от мышления.

С развитием мышления появляются новые понятия и новые слова, в результате чего язык обогащается. Такое взаимодействие языка и мышления создает основу для лучшего выражения человеком своих мыслей и чувств. Допущенные в языке ошибки указывают на спутанность мышления. Запутанное объяснение простого вопроса – путаница в мыслях (особенно это касается учителей), использование слов и словосочетаний, не соответствующих их семантике, бессвязность речи, неправильное построение предложений, набор слов и т.п. также указывает на недочеты в мышлении.

**Ключевые слова:** язык и мышление, особенности языка, история языкознания, логическое мышление, средства общения